# Adı, ünvanı yurd adlı torpaq olan şair: Nəzakət Məmmədli

**Nəzakət xanımın şeirlərini mütaliə etdikcə bu səmimi şeirlər bizi bir estetik zövq mənbəyi kimi fərəhli düşüncələrə çəkir; eləcə də şairin sənətkarlıq axtarışları baxımından bizim diqqətimizi məşğul edir. Nəzakət xanım "Yada düşdü" kimi məsul bir jurnalın, ölkədə öz dəst-xətti, yaradıcı çevrəsi olan ədəbi-bədii dərginin redaktorudur.**



Bununla bərabər, onun hərtərəfli yaradıcılığının böyük bir sahəsini şeir təşkil edir. Onun şeirləri həmən öz mövzu aktuallığı, bədii ideya, söz zənginliyi ilə diqqəti cəlb edir. Bu şeirlərdə "dünyanın əşrəfi" sayılan insan, onun xoşbəxtliyi, onu çevrələyən təbiətə, onun nemətlərinə münasibəti, insanın insana qayğısı, bəslədiyi sevgisi-ülfəti poetik ifadələrlə verilir. Özünü də həmin insanların çərgəsində gördüyümüz şairin:

Yalana dönübdü mənim gerçəyim,
Solub düymə-düymə gülüm-çiçəyim.
Analar açmayıb qara ləçəyin,
Göz yaşı dönübdür selə, şəhidim!

misralarındakı səmimiyyətə inanmamaq olmur. Çünki vətən, xalq yolunda əziz çanından keçən şəhid itkisi tək bir evin deyil, hamımızın itkisi olduğunu qəbul etməyən yoxdur aramızda. Şair bizim yaxın zamanlarda baş verən itkilərimizlə, nisbətən uzaq tarixlərdə yaşadığımız faciələrin arasında fərq görmür. Onunçün heç nə unudulmamış, heç nə yaddan çıxmamışdır. Şair "Qanlı Yanvar" üçün də eyni dərəcədə təsirlənib üzülür. Yenə göz önünə acı mənzərələr gətirilir, yenə şairanə təsvirin gücü ilə bizlərdə poetik-estetik ovqat yaratmaqla bərabər həm də bir ağlayış səsi verən lal mənzərə önündə durmuş kimi hiss edirik özümüzü:

Qar yağır.
Naxışlı, dümağ, bəmbəyaz.
Qara qan ələyir o qanlı Yanvar.
Məsum insanların qanı üstünə
Qərənfil döşəyən tarixlər də var.

Şair dünyası bəlkə də ən maraqlı, ən cazibədar və ən zəngin dünyadır həm şair, elə həm də biz oxucu üçün. Bu da gətirib Nəzakət xanım yaradıcılığında mövzu zənginliyinə çıxarır; bir çox şeirləri onun dəyişməz, sabit vətəndaş şair mövqeyini, vicdani səsin susmadığını açıq-aydın göstərir

Nadan var yetişib ucuz şöhrətə,
Alim ad alınca gözü kor qalıb.
Ey dünya, min dəfə aşınmısan sən
Şükür ki, kül altda yenə qor qalıb.

Əlbəttə, yaradıcılıq təcrübəsində tez-tez rastlanan daxili monoloq xüsusi üslubi qaydalardan biridir və bu cür nitqdə (daxili nitqdə) baş vermiş hadisələrin təsvirindən başqa, daha çox onlarla bağlı olaraq yaranmış fikir və duyğuları ifadə olunur. Dediklərimizə uyğun ən parlaq nümunə olaraq şairin məşhur "Mən zabit anasıyam!" şeirini göstərmək istəyirik:

Beşiyini asmışam, gözümtək qorumuşam,
Yuxusuz gecələri gündüzlərə qatmışam.
Şirin-şəkər balama həzin layla çalmışam,
Beşiyimə, laylama, övladıma bağlıyam,
Mən zabit anasıyam!

Hər bəndin sonunda xüsusi bir vurğuyla səslənən "Mən zabit anasıyam!" ifadəsini yalnız anaya, gecəsi-gündüzü cəbhəyə yola saldığı balasıyla bağlı olan Anaya yaraşdırmaq olar, yalnız ona aid etmək olar. Bu ifadə özü həm də təntənəli bir andı xatırladır. Vətənin dar günündə onun taleyini, müqəddəratını öz taleyi kimi daşıyan oğulla birgə olan, o tale yükünü bölüşən ananın andını andırır.

Dağlarımın başında buludlarım ağlayır,
Dili batmış o yetim bulaqlarım ağlayır.
İçimdə qəzəb, nifrət çaylar kimi çağlayır,
Məni bu intiqama, bu qisasa səsləyən
Zabit anasıyam mən!
Düşmənə "göz dağı"san, gücümsən, qüvvətimsən.
Ürəyimin təpəri, gərəyim, köməyimsən.
Vətənin "dar günü"ndə səsinə hay verənsən,
Bu torpağa, bu elə, bu Vətənə bağlısan.
Səni Vətənə verdim,
Sən Vətənin oğlusan!

Bir də fədakaranə:

Səni Vətənə verdim,
Sən Vətənin oğlusan!

Və ya,

Ana namusudur, bacı isməti,
Ərən babaların papağı - səngər.
Savaşda gözünü yuman şəhidin,
Sonuncu mənzili, otağı - səngər.

**"Səngər"**

Bunlar səssiz duyğularıdır şairin. Ana qəlbinin çırpıntılarını daha necə vermək olar?! Sərrast detalları ilə çatdırılan bədii fikrin gücünə, şeiriyyətinə, şairin mənalandırma bacarığına heyran qalmamaq olmur.

Əsas ünsiyyət vasitəsi kimi ana dilinin bütün gözəlliklərini, söz yadigarlarını üzə çıxaran, başlıcası şeiriyyat yaradan örnəkləri- nitq detallarını - xəlqi ifadələri və şairin bədii lövhələri canlandıracaq qədər dəqiq yaradıcılıq təcrübəsi nümunələrini nümayiş etdirəcək: haqqın işığı, əfsanə adam, can yanğısı, alın yazısı, naxışlı ömür-gün yolu, tanrının yazdığı, qəlb evi, göz dünyası, göz yaddaşı, dərdin ölçüsü, son mənzil, Qarabağ qoxusu, ayrılığın fəryadı, bir əlçim ümid, yanvar ağrısı, Haqqın qapısı, tale boyunca, söz işığı, halal ocaq, arzu zirvəsi, zamanın tufanları, üzərik kimi, təbərrik kimi, qeyrət ətri, igid ərənlər, şərin hiyləsi, güzgülənmək çiçək arzular... kimi emosional-estetik keyfiyyətli ifadələr bu lirik şeirlərin bədii-estetik dəyərinin son dərəcə yüksək olduğunu təsdiqləyir.

Vətəninə, yurduna, elinə-xalqına bağlı sənətkar yaradıcılığında Cənubi Azərbaycan, ikiyə bölünmüş vətən taleyi yer aldı. Bir çox şairlərimizi cəlb edən bu mövzu Nəzakət xanımı çox düşündürən mövzu oldu və beləliklə, şairimizin qələmindən də yan keçmədi:

O tayın da, bu tayın da adı vətən,
Qanqalların arasında daş bitirən,
Bülbülləri ağı üstə dil-dil ötən
O da vətən, bud a vətən-
Ərdəbilim.
Necə oldu canı candan, qanı qandan ayırdılar.
Paralayıb, parçalayıb, dağtdılar?
Əsir düşdü doğma elim,
Yasaq oldu doğma dilim,
Ərdəbilim…

deyir və bununla onun qanlı savaşdan seçilməyən sülh nəticəsində cəllad qılıncı ilə ikiyə bölünmüş vətən dərdinə qəlb üsyanını eşitmiş kimi olursan. Bunun kimi:

Dərbənd qalasından Təbrizə qədər,
Uzanan bu yurdun səsi içimdə.
Mənim Şah babamın, Şah Xətainin,
Əbədi harayı, ərzi içimdə.

sayaq bədii tapıntıları ilə itən vətən torpaqlarının sanki xəritəsini çəkir şair, həm də çəkir ki, onlar unudulmasın, yaddan çıxarılmasın, necə varsa elə o cür də yaddaşa keçsin.

Hönkürə-hönkürə axırdı sular,
Yolların üzündən kədər damırdı.
Səbrin yuxusundan keçirdi millət.
Ümidin üz-gözü mamır-mamırdı.

"Şəhid zirvəsi"

Savaş ruhlu poeziyamızın gözəl nümunələrini yaratmış, həm də bizim səadət içində, sülh, əmin-amanlıq şəraitində yaşamağımıza səbəb olan fədakar oğullarımızın xatirəsinə sədaqətli, həmçinin şeirlərində qəlbən vətənə, xalqa bağlı, onun sabahı, müstəqilliyi üçün mübarizə aparan vətəndaş şairin səsini eşitmiş oluruq:

Didərgin naləsi yurd yerlərində,
Matəm bayrağıtək dalğalanırdı.
Dədə Qorqud eli, Babək diyarı,
Hər gün oba-oba yağmalanırdı.

Bu misal çəkdiyimiz "Şəhid zirvəsi" şeirində məzmun, fikir, hətta ruh... hamısı arzuları gül açmadan solan, amma könüllərdə parlaq xatirəsi yer tutuan, əziz xatirəsi zirvələrə qaldırılan şəhidlərimizə həsr olunan gözəl şeirlərimizdən biri sayılmalıdır. Şairin yaradıcılığında sayca gözəgəlimli yer tutan vətənpərvər ruhlu şeirlərin, xüsusən ayrıca Qarabağ savaşına həsr edilmiş nümunələrin söz varlığını incələyərkən savaşın acısını daddıran: "Qıvrıla-qıvrıla qalmışdı yollar"; "bələyi qanlıydı körpələrin də"; "mərmilər yağırdı gözün qırpmadan"; "ağı söyləyirdi sanki bulaqlar"; "dillərdə üşüyür "Qarabağ" sözü"; "sonuncu ümidin solur nəfəsi"; "çiçək-çiçək şəhid qanı"; "dodaqda donmuşdu ana laylası" və bu kimi dil-nitq nümunələrin -şair sözünün can verib oyatdığı coşqun vətənpərvərlik, qəhrəmanlıq duyğularıyla yoğrulmuş bu nitq parçalarının dilimizin bütün imkanlarından istifadə etməklə ağılın və ruhun tərbiyəsi üçün yaranmış dil elementləri olduğunu çatdırmaq istərdik.

Könül oxşayan, göz oxşayan...

Bahara ilk könül verən sən oldun,
Kolların dibində bitdin, bənövşə.
Baharsa könlünü çox gülə verdi,
Gül-çiçək içində itdin, bənövşə.

Təbiətin möcüzələrindən olan bənövşəyə həsr olunan şeirlərdən biri də baxın, Nəzakət xanımın hədiyyəsidir və bu şeir şairin qadın qəlbinin incəliklərini duymaq, bu incəlikləri emosional-lirik tərzdə şirin nəğmələrə çevirmək bacarığını göstərmişdir.

Sadə şəkildə, lakin emosionallıq cizgiləriylə sərtləşən reallıq yağan "Həyatı möcüzə bilək" şeiri, eyni zamanda həmin ruhda birləşən bir çox şeirləri ilə şair insana, həyat hadisələrinə öz sağlam münasibətini bildirir. Bunun cəmiyyətdə dünyanın mizanını pozan qeyri-insani halların, gözlə görünən və görünməyən ədalətsizliklərin, saf, gözəl insani keyfiyyətlərin ayaqlar altına atıldığının, iyrəncliklərin, bütün xoşagəlməzliklərin qarşısını almağa çağırır:

Hər kəsin qəlbində dinsin vicdanı,
Nə olar, həyatı möcüzə bilək.
Zamanı incidib, qovan dünyanı
Qorusun gözəllik, məhəbbət, istək-
Nə olar, dünyanı möcüzə bilək,
Nə olar, həyatı möcüzə bilək.

"Həyatı möcüzə bilək"

Müdriklik tərbiyəsi verən, daim cəmiyyəti düşündürən, insanı mənəvi kamilliyə dəvət edən: "yaxşılıq - solmayan bir yaraşıqdır"; "rahat yuxu yatmıram, çünki düşmən yatmayıb"; "bəxti yatmış dərdləri bir kimsə oyatmayıb"; "babamın əmanəti, anamın laylasıdır"; "kimliyimi tanıdan ulu sözümdü" və s. deyimlər öz gücünə bizi nikbin düşüncələrə çəkir.

Nəzakət Məmmədli şeirlərilə insanlığa qədirbilənlik duyğusu, vətən, xalq təəssübkeşliyi, vəfasədaqət, fədakarlıq kimi qızıl dəyərində keyfiyyətlər, yenilməz güc-dəyanət və s. kimi insani hissləri tərbiyə etməklə nikbin ruh aşılayır. Bu xeyirxah fəaliyyətdir. Uğurlar olsun.

***Minaxanım NURİYEVA TƏKLƏLİ***
***Azərbaycan Dövlət Pedaqoji Universitetin professoru***